

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

12 yanvar 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 2 (3616)

# ÖTƏN İLİN UĞUR HESABATI

## Prezident İlham Əliyev: "Azərbaycan bütün hədəflərinə çatacaq"



Yanvarın 10-da Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib.

2022-ci ilin nəticələrinin Azərbaycan üçün ürəkaçan olduğunu, demək olar ki, qarşıya qoyduğumuz bütün hədəflərə çatdığımızı deyən dövlətimizin başçısı 2023-cü ilin də asan olmayacağını, lakin post müharibə dövründən sonra ölkəmizin beynəlxalq əlaqələr müstəvisində, eləcə də ölkə daxilində artan nüfuzunun istəklərimizə nail ola biləcəyimizə böyük ümidlər verdiyini bildirib. Prezident İlham Əliyev Azərbaycanın dünyada etibarlı və ciddi tərəfdaş kimi tanındığını, müstəqil siyasət apararaq öz sözünü açıq şəkildə dünyaya çatdırdığını, mübarizənin hələ davam etdiyini, bəzi güclər tərəfindən yaradılan süni manevrlərə baxmayaraq haqq yolunda olduğumuz, haqqımızı tələb etdiyimiz üçün qalib gələcəyimizi əminliklə ifadə edib.

Kəskin qiymət artımından söz açan ölkəmizin rəhbəri iqtisadiyyatımızın dünya iqtisadiyyatının bir parçası olduğunu, məhz bu səbəbdən də mənfi təsirlərə məruz qaldığını, buna baxmayaraq böhranlı vəziyyətdən çıxmaq üçün sosial layihələrin, sosial proqramların işləndiyini, proqramların xüsusən aztəminatlı, həmçinin şəhid ailələrini, pensiyaçıları əhatələdiyini və uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, qəbul edilən sosial paketlər nəticəsində ölkə iqtisadiyyatı güclənərək ümumi daxili məhsulumuz rekord həddə - 134 milyard manata çatıb.

Orta Dəhliz və Zəngəzur dəhlizi ilə bağlı sualı cavablandıran Prezident İlham Əliyev Azərbaycanın nəqliyyat, tranzit və logistika potensialının yüksəldiyini, reallaşmaqda olan layihənin nəinki region, o cümlədən türk dövlətləri təşkilatı və dünya ölkələri üçün olan perspektivlərindən danışıb. Suala əlavə olaraq dövlətimizin başçısı Qərbi Azərbaycan İcması ilə bağlı görüşünü xatırladaraq uzun illər deportasiyaya məruz qalmış soydaşlarımızın da hüquqlarının tezliklə bərpa olunması, onların ata-baba yurdlarına qayıtması istiqamətində yaradılmış işçi qrupunun beynəlxalq arenalarda mühüm işlər gördüyünü bildirib.

Prezident müsahibə zamanı Qarabağın erməni sakinlərindən də söz açaraq orada Azərbaycan bayrağı altında yaşamaq istəyənlər üçün şəraitin yaradılacağını, istəməyənlərin gedə biləcəklərini deyib. O, ötən günlərdə Azərbaycan postlarından birinə yaxınlaşıb kömək istəyən ermənini də nümunə gətirib.

Jurnalistlərlə görüşdə Fransanın anti-Azərbaycan mövqeyi də müzakirə olunub.

“Bizim müharibədə qalib gəlməyimiz Fransada bir çoxlarını çox qıcıqlandırdı. İndi keçmişə nəzər saldıqda görürük və bir daha əmin oluruq ki, Minsk qrupu, xüsusilə Fransa hər vəchlə çalışır bu məsələ öz həllini tapmasın. Biz bununla barışmadıq və hesab edirəm, belə anti-Azərbaycan mövqeyinin əsas səbəbi budur ki, biz onların planlarını alt-üst etdik və onlar da öz himayəsinə aldıqları Ermənistanı xilas edə bilmədilər”.

Dünyada baş verən hazırki siyasi prosesləri şərh edən Prezident İlham Əliyev bildirib ki, dünya qütbləşib, qarşıdurmalar dərinləşib. Dövlətimizin başçısı Qərblə Rusiya arasındakı müharibənin nəticəsində yeni güc mərkəzinin Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının bir üzvünün olacağı barədə də mesajını verib.

## Rəsmi xronika

*Dövlətimizin başçısı yanvarın 5-də əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında sərəncam imzalayıb.*

*Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 11-də Muxtar Məmməd oğlu Məmmədovun Azərbaycan Respublikasının İsrail Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi ilə bağlı sərəncam imzalayıb.*




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il yanvar ayının 26-da Qəbələ Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 25.01.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# DAXİLİ İŞLƏR NAZİRİ ƏMƏLİYYAT MÜŞAVİRƏSİ KEÇİRİB



Bu gün daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə DİN-in Daxili Qoşunlarının 2022-ci ildəki xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf və tərəqqi strategiyası nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, hərbi qulluqçuların iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini cənab Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edən nazir, onu da vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan və polis əməkdaşlarından xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov Qoşunların qarşısında duran vəzifələri qeyd edib, tapşırıq və tövsiyələrini verib. Eyni zamanda, əmin olduğunu bildirib ki, şəxsi heyət onlara göstərilən diqqət və qayğıya sabitliyin, əmin-amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

# QARABAĞA QAR YAĞIR

**Şuşaya, işğaldan azad olunmuş torpaqlarımıza qar yağır. Dərddən ağır deyil bu qar, adamı qılınc kimi kəsmir bu şaxta. Azərbaycan Əsgərinin və Azərbaycan Polisinin od nəfəsi, yeri-göyü titrədən addım səsləri torpağı qış yuxusundan oyadır yaz gəlməmiş.** Ömrü qərinəni ötənlər, qismətinə 50-dən sonra köçkünlük yazılanlar yaxşı bilir ki, yaz Qarabağa 1993-ü ilə qədər gəlmişdi. Sonra isə 30 illik buz dövrü başlamışdı bu yerlərdə. Yurdsuzluğun bir gününə dözməmişdi 80-i, 90-ı, 100-ü dişi damağında, ağlı başında haqlayanlar. Qarabağın yazından, yayından, payızından, qışından xəbərsiz qarabağlılar ordusu doğulmuşdu Bakıda, Şəkidə, Şamaxıda, bir sözlə, Azərbaycanın hər yerində.













İki il öncə düşmənlə təmas xəttində payızın quzu ağzı yetəcək qədər boy atmış göy otlarının sevincinə Şuşanı üzük qaşı kimi dövrəyə alan qayalarda bitən dağdağanlar yallı getmişdi. İtburnu, moruq kolları tikanlarını tökmüşdü ki, qayakürək oğullara irəliləməkdə çətinlik yaratmasın. Bu yerlərin təbiəti sahibinə çox vəfalıdır: onu donmağa, üşüməyə, ac qalmağa qoymaz. İlin hər fəslində təbiət səxavətlidir.

“Qan çilənən torpaq heç zaman donmur”. Bu fikri kimin dediyini xatırlamasam da həqiqət olduğuna qətiyyən şübhə etmirəm. Çünki, yazdığım kimi, iki il öncəyə qədər dünyanın ən soyuq yeri, alçatmaz, ün yetməz zirvəsi Qarabağ idi. İndi isə...

2023-cü ilin yanvarı buz qılıncını sıyırıb üstümüzə gəlib. Qoy gəlsin, ömrü kiçik çillə və “boz ay” bitənə qədərdir. Sonra yenə yurdumuza yaz gələcək, sonra yenə yağan qar selə dönüb dəli dağ çaylarının səmənd atı kimi sal qayaları ağzına alıb gücü çatdığı qədər aparacaq.

***Sözardı:** Onu bilirəm ki, Şuşaya, Qarabağa, Xankəndinə yağan qardan illərdir ki, Bakıya yağmır. Deyəcəksiniz ki, bəs bu yağan nədir? Cavabım bu olacaq: Böyüklərin qayğısı, uşaqların sevinci...*

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# Ən sərrast atıcılar məlum oldu

Ölkəmizdə 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsilə bağlı silsilə tədbirlərin keçirilməsinə start verilib. DİN Polis Akademiyasında da tədbirlər planına uyğun olaraq 9-11 yanvar tarixlərində əyani təhsil üzrə III və IV kurs kursantları “Ən sərrast atıcı” adı uğrunda hədəfi nişan alıblar.





Ümummilli lider Heydər Əliyevin, vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin, xidməti-döyüş tapşırıqlarını yerinə yetirərkən həlak olmuş həmkarlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və Dövlət Himni səsləndirildikdən sonra tədbir açıq elan olunub. Hərbi kafedranın əməkdaşları yarışın qaydaları və şərtləri barədə iştirakçıları məlumatlandırıblar. İlk tapşırıq kursantların tapançadan atış üzrə ilkin vərdişlərə və dəqiq nişan almaq taktikasına yiyələnmə məqsədilə gündüz hədəfə yerindən cüt əllə atəş açması olub.

Münsiflər heyətinin rəyinə və nəticələrə əsasən şəxsi birincilikdə I yerə IV kurs 1-ci taqım kursantı Turqut Süleymanlı, II yerə III kurs VII-ci taqım kursantı Qamət Ənvərzadə, III yerə isə III kurs VIII-ci taqım kursantı Polad Hüseynli layiq görülüb.

Tədbirin yekununda qalib kursantlara diplom, medal və qiymətli hədiyyələr təqdim olunub.

*“Polis”*




# HAQQIN KEŞİYİNDƏYİK...

Artıq 32-ci gündür ki, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə təbii sərvətlərimizin talanmasına, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına, eləcə də Qarabağ iqtisadi rayonunda ekoloji terrora etiraz olaraq ekofeallar və qeyri-hökumət təşkilatlarının təmsilçiləri Laçın-Xankəndi yolunun bir hissəsində dinc aksiya keçirirlər.

Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşlarının xidməti, təhlükəsizliyin təmini aksiya iştirakçıları tərəfindən minnətdarlıqla qarşılanır. Fəalların aksiyada hərbi qulluqçuların və polis əməkdaşlarının ünvanına alqışlarla səsləndirdikləri şüarlar ictimai rəğbətin, habelə onların fəaliyyətinin müsbət qiymətləndirilməsinin təzahürüdür.

Hava şəraitinin kəskin dəyişəcəyi ilə bağlı əhaliyə edilən xəbərdarlıqdan sonra aidiyyəti dövlət qurumları zəruri-qabaqlayıcı hazırlıq tədbirləri həyata keçirsələr də yağan qar “öz işini” görmüşdü. Səhər saatlarından başlayaraq yollardan yenə də həyəcanverici xəbərlər gəlməkdəydi. Baş verən qəzalarda xəsarət alanlarla yanaşı, həyatını itirənlər də olmuşdu. Bütün bunlara baxmayaraq paytaxtda və regionlarda piyadaların, sürücülərin rahat, təhlükəsiz hərəkətinin təmini, habelə vətəndaşların üzləşəcəkləri problemlərin vaxt itirmədən aradan qaldırılması məqsədilə səfərbər olunan həmkarlarımız 24 saat xidmət aparırlar.





# Vəzifə borcu, vətəndaş yanğısı





Onlar yolu keçməkdə çətinlik çəkən yaşlıların, məktəblilərin, bir sözlə hər kəsin mənzil başına sağ-salamat çatmasını təmin edib, çarəsiz vəziyyətdə qalanların imdadına çatırlar. Hər zaman olduğu kimi, bu qarlı günlərdə də insanların ümid və güvənc yerinə çevrilən Azərbaycan Polisi həm də özünün vətəndaş mövqeyini nümayiş etdirir.

Onların fədakarlığından yazmağa sözümüz çoxdur. Lakin bu danışan şəkillərdən sonra əlavə şərhə ehtiyac duymuruq.

*Teymur Əlizadə*

# Odun-alovun içində...





Vətəndaşlarımız polisin qəhrəmanlığının, ona təhlükədən daha yaxın olduğunun dəfələrlə şahidi olublar.

Yanvarın 8-i saat 18:20 radələrində Lökbatan qəsəbəsində yerləşən “Sədərək” Ticarət Mərkəzində baş vermiş yanğının qarşısını almaq üçün digər qurumlarla yanaşı, Qaradağ Rayon Polis İdarəsinin, Qaradağ Rayon Mühafizə İdarəsinin, Yol Patrul Xidmətinin və Əlahiddə Çevik Polis Alayının əməkdaşları da cəlb olunmuşdu.

Axşam saat 22:00-da yanğın söndürüldü. Tüstüdən zəhərlənən Qaradağ RPİ-nin Post-Patrul Xidməti Bölüyünün əməkdaşı, polis serjantı Elvin Məmmədovun DİN-nin A.Heydərov adına Respublika Hospitalına yerləşdirməsi yenidən diqqəti üzərinə çəkdi. Çünki yanğından zərərçəkmiş şəxslər, o cümlədən digər mağaza sahibləri sosial şəbəkələr üzərindən polisə minnətdarlıqlarını ifadə edirlər.

“Polis” qəzeti olaraq E.Məmmədovun səhhəti ilə bağlı Hospitalın Terapiya Şöbəsilə əlaqə saxladıq. Şöbənin rəisi, tibb xidməti polkovnik-leytenantı Samirə İmanova bildirdi ki, xəstə gətirilərkən vəziyyəti ürəkaçan olmayıb. Aparılan müayinə və müalicədən sonra hal-hazırkı vəziyyəti orta ağırdır. Müalicəsi davam etdirilir.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Şəhid ailələri minnətdarlıq edir

Ölkə rəhbərinin vətəndaş müraciətlərinə həssaslıq nümayiş etdirməsi və bu istiqamətdə aidiyyəti orqanlardan fəaliyyətlərində dönüş yaratmalarının tələb olunması vətəndaş məmnunluğu üçün xidmətin bariz nümunəsidir.

Cəmiyyətin həssas təbəqələrindən olan şəhid ailələri və qazilərin, müharibə iştirakçılarının üzləşdiyi problemlərin həllini tapması istiqamətində atılan addımlar rəğbətlə qarşılanır ki, bu da dövlətlə vətəndaş arasındakı bağı daha da möhkəmləndirir. Məhz vətəndaş məmnunluğunu xidmətinin prioritet istiqamətlərindən biri hesab edən Daxili İşlər Nazirliyi ünvanlanan müraciətləri, sorğuları qeydə alır, həlli istiqamətində əməli işlər görülür. Ötən müddət ərzində ən fəal dövlət orqanı seçilməyimiz də ictimaiyyət arasında keçirilən sorğuların, eləcə də görülən işə verilən dəyərin nəticəsi idi.

DİO olaraq məqsədimiz peşəkar xidmətlə yanaşı, əsl vətəndaş mövqeyi nümayiş etdirməkdir. Fəaliyyətimiz insanları qane edir-



sə, inam və etibar qazanmışıqsa, deməli, ünvanımıza deyilən xoş sözlər haqqımızdır.

“Şəhid bacısı olmağımla qürur duyuram. Acım böyük olsa da bilirəm ki, şəhidlər unudulmur, adları həmişə Vətənlə qoşa çəkilir. Hər addımda səmimiyyətlə və rəğbətlə qarşılaşmağım isə mənə ən böyük təsəllidir. Belə ki, üzləşdiyim problemlə əlaqədar müraciət etdiyim zaman mənə göstərilən münasibət ürəyimi dağa döndərdi. Polislərin peşəkarlığı sayəsində problemim müsbət həllini tapdı. Bütün bunları görməzdən gələ bilməzdim. Diqqət, hörmət rəğbətəlayiqdir. Bir vətəndaş olaraq DİN rəhbərliyi başda olmaqla daxili işlər orqanları əməkdaşlarına təşəkkürümü bildirirəm”. Bu fikirlər şəhid bacısı Sevinc Cəfərovanın təşəkkür məktubunda yer alır.

Başqa bir təşəkkür məktubunu da şəhid ailəsinin üzvü Fərqiyyə İsrafilova ünvanlayıb. O, yazır: “Ölkə və DİN rəhbərliyi tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğı tökülən qanların bihudə getmədiyini təsdiqləyir. Bu isə bizə təpər taparaq həyata tutunmağımız üçün səbəb olur. Azərbaycan Polisi təhlükəsizliyimizi etibarlı qorumaqla yanaşı, şikayətimizə də anında reaksiya verir. Belə ki, bu günlərdə mənə dəymiş maddi ziyanla bağlı müraciət etmişdim. Baxıldı, araşdırıldı və dəymiş ziyan ödətdirildi ”.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Prezidentdən hədiyyə aldılar





Yanvarın 9-da 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edən dövlət başçısı idmanın inkişafında xidmətləri olan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edib.





Mükafatçılar sırasında DİN İdman Cəmiyyətinin yetirmələrindən DİN-in Daxili Qoşunlarının idman komandasında məşqçi-müəllim, kapitan Ruslan Lunyov və Əlahiddə Çevik Polis Alayının taqım komandiri, polis baş leytenantı Dadaş Dadaşbəyli də olub. Prezident İlham Əliyev tərəfindən onlara ev hədiyyə olunub.

Qeyd edək ki, R.Lunyov güllə atıcılığında Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında 4 qızıl, 4 gümüş və 1 bürünc medal qazanıb. D.Dadaşbəyli isə 102 kiloqram çəki dərəcəsində ağırlıqqaldırmada Avropa çempionu, V İslam Həmrəyliyi Oyunlarının gümüş mükafatçısıdır.

# Boksda ÇƏLƏBİYEV imzası



Onun adı gənc yaşlarından Azərbaycanın boks tarixinə düşüb. Elə bu günlərdə ölkəmizdə idmanın inkişafındakı xidmətlərinə görə Prezidentin “Tərəqqi” medalı ilə təltif etdiyi idmançıların siyahısında onun da adının olması “tarixə düşmə”nin təsadüf olmadığını təsdiq etdi. O, idman zallarında 7 yaşından düyünlədiyi yumruqlarla, sözün əsl mənasında, döyüşə-döyüşə özünə yol açıb və Cavid Çələbiyev imzasını Azərbaycan boksuna həkk edib.

Təxminən 5 il öncə daxili işlər orqanlarında xidmətə başlayan Cavid Çələbiyev hazırda Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun Mühafizəsi üzrə Polis İdarəsinin taqım komandiridir və çoxsaylı idman titullarının qarşısına həm də “polis leytenantı” yazılır.

Dövlət başçısının idmançı həmkarımızı medalla təltif etməsi onun sevincini və təəsüratlarını oxucularımızla bölüşmək fürsəti doğurdu,





biz də bu imkanı əldən vermədik.

Onda boksa marağı məşhur boksçu olan atası Natiq Çələbiyevin evdəki saysız-hesabsız medalları, rinqlərdəki uğurları yaradıb. Uşaqlıq həvəsi məşqlərdəki zərbələrin təsirindən indi barmaqlarının üstündə izləri açıq-aşkar sezilən qabarlar yaratsa da, rinq həyatı oğul Çələbiyevin şöhrətini atasının ad-sanından uzaqlara yayıb: “Rinqdə ilk uğurlarımı yeniyetmə yaşlarımda Bakı və respublika çempionu olarkən yaşadım. 2013-cü ildə isə Qazaxıstanın Almatı şəhərində baş tutan dünya çempionatında qızıl medal qazandım. Bu qələbəm Azərbaycanın boks tarixində bir yenilik idi, böyüklər arasında ən gənc dünya çempionu olmuşdum”.

Bundan sonra Avropa ikincisi olan C.Çələbiyevə Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları çempionluq gətirib. Bu döyüşü ölkə başçısı İlham Əliyev də izləyib və qızıl medalı idmançımıza şəxsən təqdim edib.

Sovetlər dönəmindən bu yana boks üzrə Azərbaycanın 5 dünya çempionundan biri olan Cavid Çələbiyev bəzən rinqdə çətin rəqibdən əlavə, hakimlərin haqsızlığı ilə də qarşılaşmalı olub. "Tokio -2020" Yay Olimpiya Oyunlarında hakimlərin mübahisəli qərarı ilə yarışdan medalsız geri dönməsi üzləşdiyi belə ədalətsizliklərdən biri idi. Ancaq gücün və iradənin sınağa çəkildiyi rinqlərdə püxtələşən, peşəkarlaşan əməkdaşımızın döyüşmək əzmi onu hər zaman qələbələrə səsləyir. Növbəti yarışlarda da gücünü sınayacaq: “Rəhbərlik tərəfindən yarışlara hazırlaşmaq üçün bütün lazımi şərait yaradılır. Qarşıda dünya və Avropa çempionatı gözlənilir. Daha sonra Avropa oyunlarının lisenziya döyüşləri olacaq, bu lisenziyanı əldə edənlər Parisdə Olimpiya oyunlarında iştirak hüququ qazanacaq. İdmanda əvvəlcədən heç nə demək mümkün olmasa da, hələ döyüşmək istəyirəm”.

Beynəlxalq rinqlərdəki nailiyyətləri, olimpiya və dünya çempionatının medalları, “Əməkdar idman ustası” adı polis leytenantı Çələbiyev üçün daxili işlər orqanlarının əməkdaşlarını yarışlara hazırlamaq perspektivi də açır. Özü bu barədə təklif olarsa, dəyərləndirə biləcəyini söyləyir. Prezidentin məlum sərəncamı ona bir qədər də stimul verib ki, nailiyyətlər əldə etsin, zirvələrə can atsın: “Bundan sonra da dövlətimə, xalqıma həm idmanda, həm də peşə fəaliyyətimdə sədaqətlə xidmət edəcəm”.

İdmançı həmkarımız özünü və sözünü dəfələrlə təsdiq edib deyə, bizə yalnız “yumruğun hər zaman haqqı qorumaq üçün düyünlənsin”,- demək qalır.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Metodiki vəsait işıq üzü görüb




Polis Akademiyasının “Fiziki hazırlıq” kafedrasının müəllimi, polis kapitanı Natiq Eminovun "Daxili işlər orqanları əməkdaşlarının fiziki qüvvə tətbiq etməsinin hüquqi əsasları və praktiki icra qaydaları” adlı yeni metodiki vəsaiti işıq üzü görüb.

Vəsaitdə fiziki qüvvənin tədbiqinin hüquqi əsaslarında Türkiyə, Rusiya və Böyük Britaniya kimi inkişaf etmiş dövlətlərin polisin fiziki güc tətbiq etməsi haqqında qanunları müqayisəli şəkildə təhlil edilir. Fiziki gücün praktiki icra qaydalarına gəlincə, müəllif DİO əməkdaşlarının xidməti fəaliyyətlərində fiziki güc, silahsız özünümüdafiə fəndlərinin və xüsusi vasitələrin tətbiqinə qanunvericiliklə onlara verilmiş səlahiyyətlər çərçivəsində və zəruri olan şəraitdə peşəkarlıqla istifadə etmələrini labüd sayır. İnanırıq ki, təklif olunan ədəbiyyat DİO əməkdaşlarının xidməti fəaliyyətində mühüm rol oynayacaq.

Vəsaitin rəyçiləri Milli Məclisin deputatı Jalə Əhmədova, Polis Akademiyasının əməkdaşları İmrəli Məmmədəliyev, Əziz İsaxanov və Vasif Namazovdur.

Qeyd edək ki, həmkarımız N.Eminov Azərbaycan “Alpaqut Turan döyüş səneti”nin kaçut (silahsız özünümdafiə) sistemi üzrə koordinatoru 3 qat dünya çempionudur.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Silah-sursat aşkar edilib



Cəbrayıl Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş tədbirlər nəticəsində rayonun inzibati ərazisindən xeyli sayda silah-sursat aşkar edilib.

Bərdə regional qrupumuzdan verilən məlumata görə, polis əməkdaşlarının işğaldan azad edilmiş ərazilərdə keçirdikləri tədbirlərlə tərk edilmiş hərbi mövqelərdən 11 avtomat, 2 pulemyot, 7 qumbaraatan, 2 snayper tüfəngi, 2 optik nişangah, 59 müxtəlif növ mərmi, 7780 ədəd müxtəlif çaplı patron və digər sursatlar götürülərək aidiyyəti üzrə təhvil verilib.

*Aslan Qiyaslı,*
*polis kapitanı*

# “Fenomen” valideynlər



Son dövrlər “Tik Tok” sosial şəbəkəsində uşaqların hüquqlarının pozulması, onların zərərli vərdişlərə yönəldilməsi kimi görüntülərin yayılması həm bu platforma, həm də valideynlik hüququ ilə bağlı müzakirələri artırıb. Bu sosial şəbəkədə yerləşdirilən videoların baxış sayına görə ödəniş təklif edilməsi canlı yayımda min hoqqadan çıxan “fenomenlər” yaradıb ki, hətta, öz övladına siqaret çəkdirən, spirtli içki qəbul etdirib görüntüləyən valideynlər belə bu axına qoşulur.

Bir müddət əvvəl “Tik Tok”un Azərbaycanda yayımının müvəqqəti dayandırılmasının cəmiyyətin əksər hissəsi tərəfindən müsbət qarşılanması, üstəlik yerli-dibli qadağan edilməsinin zəruriliyinin dilə gətirilməsi yuxarıda sadaladıqlarımıza qarşı həyəcan təbilinin çalınması demək idi. Doğrusu, sosial şəbəkələrdə milli-mənəvi əxlaqımızı, ailə dəyərlərimizi gözdən salan bu kimi halların artması qanunvericilikdə sərt sanksiyaların yer almasını tələb edənlərin mövqelərini, haqlı olaraq, keçən hər gün daha da gücləndirir.

Məhz bu səbəbdən də problemləri əvvəlcədən qarşılamaq, uşaqları zərərli vərdişlərdən, mənəvi dəyərlərdən uzaq alışqanlıqlardan qorumaq üçün geniş maarifləndirici-profilaktik tədbirlər keçirən polisin bu məsələ ilə bağlı mövqeyi, uşaqlarla bağlı həssaslığı öz-özlüyündə cəmiyyətə bəllidir. Azyaşlılara tütün məmulatı və enerji içkisi satan obyektlərdə keçirilən reydlərlə polisin yeri gələndə həm inzibati tədbirlərdən istifadə etdiyini, həm də uşaqları maarifləndirməklə onları qorumağa çalışmasına çoxsaylı faktlar göstərmək olar.

Mövzu ilə bağlı Baş İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili şöbəsindən qəzetimizə bildirilib ki, ötən il ərzində respublika üzrə 520 təlim müəssisəsində maarifləndirici görüş keçirilib. Azyaşlılara tütün məmulatı və enerji içkilərinin satılması ilə əlaqədar 816 fakt əsasında isə cərimə cəzası tətbiq olunub.

İnternet resurslarında uşaqlarla bağlı neqativ görüntülərin yayılmasına gəlincə, qeyd edilib ki, bu kimi hallara yol verildikdə məsələ dərhal nəzarətə götürülür, ilk növbədə uşağın yer aldığı görüntülər silinir və valideynlə izahedici söhbətlər aparılır. Əgər uşağı tütün məmulatından istifadəyə məcburetmə faktı aşkar edilərsə, həmin şəxs haqqında da qanunvericilikdə nəzərdə tutulan cəza tətbiq edilir. Aparılan təhlillər isə göstərir ki, validenylər bir çox halda əməllərinin məsuliyyətini, törədə biləcəyi fəsadları anlamadan uşaqları sosial şəbəkələrin qurbanına çevirirlər.




*Rəşad Mehtiyev*

## Mükafatlı sual rubrikası




“Hər üç nəfərdən biri Amerikanın indi hər şeyin mümkün olduğu bir ölkə olduğuna şübhə etmirsə, əcdadlarımız hələ də arzu ilə yaşayırsa, bizim demokratiyanın gücü hələ də şübhə altına alınırsa, bu gecə sizin onlara cavabınızdır...

...Bu, sizin qələbənizdir. Bunu məhz seçkidə qalib gəlmək üçün, həm də mənim üçün deyil, qarşıdakı vəzifənin böyüklüyünü başa düşdüyünüz üçün etmisiniz. Hətta bu axşam qələbəni qeyd etdiyimizə baxmayaraq, sabahın çağırışlarının həyatımızın ən böyük çağırışları olacağını bilirik...”

Bu fikirlər onun prezident seçkilərində qalib gəldikdən sonrakı çıxışında yer alır. Söhbət kimdən gedir? Sualı ilk cavablandıran oxucumuz redaksiya tərəfindən ən qiymətli mükafatla-kitabla mükafatlandırılacaq.

**Vatsap: +99455-875-16-39**

## Qalib oxucumuz



Ötən nömrəmizdəki “Mükafatlı sual” rubrikasında yer alan sualın cavabı tapılıb. Oxucularımıza türk-islam dövlətinin idarə sistemi, vergi qaydaları, hərbi quruluşu, təhsili, mədəniyyəti və bir sıra qayda-qanunları barədə məlumat verən tarixi şəxsin kimliyi, eləcə də məşhur əsəri barədə sual ünvanlamışdıq.

**Suraxanı RPİ-nin dəftərxana operatoru, polis serjantı Bətulə Qasımova** cavabı vatsap nömrəmizə ilk göndərən oxucumuz olaraq digərlərini qabaqlayıb və mükafat əldə etmək haqqı qazanıb.

***Söhbət Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülkün “Siyasətnamə” əsərindən gedirdi.***

Həmkarımızı təbrik edir və xidməti fəaliyyətində uğurlar arzulayırıq.

# Pulu xərcləməyə imkan tapmadı...

Sabunçu RPİ 13-cü Polis Bölməsinin əməkdaşları rayon sakini Vüqar Quliyevin etibarından sui-istifadə edərək 3 min 500 manatını dələduzluq yolu ilə ələ keçirən şəxsi yaxalayıblar.



Zərərçəkmişin həmin şəxslə tanışlığı sosial şəbəkə üzərində baş tutub. Özünü Fariz kimi təqdim edən şəxs “Hyunday Elantra” markalı avtomobilini sayt vasitəsilə satışa çıxarıb. Vüqar Quliyev onunla əlaqə saxlayıb və maşına baxmaq üçün Nərimanov ərazisində görüşüblər. Ertəsi gün Vüqar 3 min 500 manatı Sabunçu rayonu Bakıxanov qəsəbəsində yerləşən mağazaların birinin qarşısında Farizə verib. Fariz evə gedib-qayıdacağına, onunla birlikdə DYP-yə gedəcəyinə, hətta ona istədiyi nömrəni də alacağına söz verib.

Həmin gün Vüqar Farizi nə qədər gözləsə də, o gəlməyib, zənginə də cavab verməyib. Aldanıldığını başa düşən V.Quliyev üz tutub Sabunçu RPİ-nin 13-cü Polis Bölməsinə. Şikayət ərizəsini yazdıqdan sonra Sabunçu RPİ-nin İstintaq şöbəsində CM-nin 178.1-ci maddəsilə cinayət işi açılıb. İstintaq şöbəsinin müstəntiqi, polis polkovnik-leytenantı Zaur Kərimov “Polis”ə bildirib ki, keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə qısa müddət ərzində dələduzluq əməlini törətmiş şəxs İdarəyə gətirilib və dindirilib. Məlum olub ki, “Fariz” əslində, Şəfiyev Anar Cangir oğludur. Elə həmin gün zərərçəkmişə dəymiş maddi ziyan tam ödətdirilib.

Bakı şəhər sakini Vüqar Quliyev DİN rəhbərliyinə təşəkkür məktubu yazmağı da unutmayıb.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Cinayətin qarşısını aldı



Yanvarın 11-də səhər saatlarında Nizami Rayon Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Fazil Məmmədov cinayət hadisəsinin qarşısını alıb.

Polis əməkdaşı övladını məktəbə yola saldıqdan sonra xidmət yerinə getmək üçün Sabunçu rayonu Bakıxanov qəsəbəsində Yavər Əliyev küçəsindəki dayanacaqlardan birinə yaxınlaşıb. Elə bu zaman bir qadın qorxu və həyəcan içində həmkarımıza yaxınlaşaraq ondan kömək istəyib: “Qadının arxasınca qaçan bir oğlan mənə yaxınlaşıb, bunun bir ailə münaqişəsi olduğunu və müdaxilə etməməyimi istədi. Onu sakitləşdirmək istəyəndə cibində bıçaq olduğunu gördüm. Tez bıçağı götürüb, şübhəli şəxsi isə taksi ilə aidiyyəti üzrə Sabunçu RPİ-nin 13-cü Polis Bölməsinə aparıb təhvil verdim”.

Həmkarımız şübhəli şəxsi polis bölməsinə raportla və bıçaqla birlikdə təhvil verdikdən sonra məlum olub ki, hücuma məruz qalan Elnarə Əliyeva, hücum edən isə onun oğlu Şamil Şükürovdur.

O da müəyyən edilib ki, Ş.Şükürov axtarışda olub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# OĞURLANMIŞ QƏTL

*Əvvəli ötən sayımızda.*

Hadisə haqqında heç bir qəzetdə heç nə yazılmaması bizi təhqir etmişdi. "Lənət şeytana! - biz donquldanırdıq. - Burda hər cür siyasi hadisədən, müxtəlif fırıldaqlardan, hətta tramvayın əl arabasını əzməsindən də yazırlar, ancaq bizim qətl haqqında bir kəlmə də yazmayıblar. Bu qəzetlər necə də satqındırlar!"

Sonra filotelistin ağlına gəldi ki, bəlkə polis qəzetlərdən xahiş edib ki, istintaq bitənə qədər heç nə yazmasınlar. Bu bizi həm sakitləşdirdi, həm də bir az da həyəcanlandırdı. Biz belə bir küçədə yaşadığımızla fəxr edirdik və əmin idik ki, bu sirli hadisə ilə əlaqədar şahid kimi polisə çağırılacağıq. Ancaq ikinci gün də qəzetlərdə heç nə yazılmadı və polisdən istintaqı aparmaq üçün heç kim gəlmədi, ən təəccüblüsü isə o idi ki, heç kim mərhumun yaşadığı evin sahibigilə gəlib onun otağına baxmadı və onu möhürləmədi.

Bu artıq bizə möhkəm toxunmuşdu. Musiqiçi dedi ki, bəlkə polis işi itirmək istəyir, Allah bilir bu işdə kimin barmağı var.

Üçüncü gün də qəzetlər susanda bütün küçə hirslənməyə başladı və hamı bir ağızdan iddia etdi ki, biz bunu belə qoymayacağıq, necə olsa mərhum bizim qonşumuz idi və biz bütün bu fırıldağın üstünün açılmasına nail olacağıq. Bizim küçəyə onsuz da xor baxırlar - səkimiz pis gündədi, işıqlandırma çox pisdir, ancaq burda hansısa parlamentari, ya da jurnalist yaşasaydı, yəqin ki, hər şey başqa cür olardı. Əməli-başlı küçədi, ancaq müdafiə edəni yoxdur.




Qısası, küçədə qarşısıalınmaz narazılıq yaranmışdı. Qonşular yaşlı və hörmətli adam kimi mənə müraciət etdilər ki, bölməyə gedim və qətlə bu qədər pis münasibət bəslənməsini komissara danışım.

Mən də əvvəldən bir az tanıdığım komissar Bartoşekin yanına getdim. O, elə qaraqabaq adam idi ki. Deyirlər o, hələ də hansısa nakam məhəbbətin iztirablarını çəkir. Polis xidmətinə də məhz bu dərdin ucbatından başlayıb.

- Pan komissar, - ona dedim. - Gəldim öyrənəm ki, Kruçembur küçəsindəki qətl hadisəsinin istintaqı necə gedir? Bu iş haqqında bu qədər susulması bizi təəccübləndirir.

- Hansı qətl? - komissar soruşdu. - Orda heç bir qətl hadisəsi olmayıb. Mən dəqiq bilirəm, axı bu, bizim rayondur.

- Necə yəni? Bəs küçədə güllələnən o rus? Kovolenko, ya da Kopıtenko? - mən xatırlatmağa çalışdım. - Orda iki polis var idi. Biri şahidlərin adlarını yazdı, o biri mərhumu "Təcili Yardım"a apardı.

- Bu, mümkün deyil. - komissar bəyan etdi. - Bizdə heç bir qətl qeydə alınmayıb. Yəqin səhv edirsiniz.

- Ah, pan komissar, - mən artıq əsəbləşməyə başladım. - bu hadisənin ən az əlli şahidi var, hamısı da bunu təsdiq edə bilər. Biz loyal vətəndaşlarıq, pan komissar və əgər dilimizi saxlamaq lazımdırsa, elə də deyin, bilək. Ancaq heç nədən qətli görməməzlikdən gəlmək olmaz axı. Biz qəzetlərə yazacağıq.

- Dayanın! - komissar sifətinə elə ciddi ifadə verdi ki, mən hətta qorxdum. - Xahiş edirəm, hər şeyi başdan danışın.

*Ardı gələn sayımızda.*




**Yasamal RPİ 29-cu Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakinləri E.Əliyev və L.Qarinseva saxlanılıblar. Onlardan 3 kiloqram 10 qram heroin aşkar olunaraq götürülüb.

◆◆◆

**Balakən Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Qullar kənd sakini, əvvəllər məhkum olunmuş A.Motuxovdan nömrəsi silinmiş “PM” markalı tapança, 1 ədəd patron və marixuana aşkar olunaraq götürülüb.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10000
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik